

# BÖYÜK MƏMMƏD CƏFƏR

## (110 illiyi mynasibətilə)


***VAQİF YUSİFLİ,***
***Filologiya elmləri doktoru***


**O, dənizin əbədi narahatlığını seyr etməyi sevir. Axşamlar onun ağır addımları sahildə xəfif izlər buraxır. Gündüzlər dan yerinin işıqları dənizin və onun yazı masasının aynasında sınır. Vaqifin adını daşıyan küçədə iki tanış, iki açıq pəncərə. Xəzərə baxır və şəhərin mavi genişliyi bu otağı dəniz səmasının üfüqləri ilə birləşdirir. Romantik, ilhamlı bir ürəyin Xəzərlə ünsiyyəti hər səhər belə başlayır ” Böyük tənqidçimiz Yaşar Qarayevin öz ustadı - akademik Məmməd Cəfər Cəfərov haqqında qələmə aldığı ”Bir ömrün işıqları” sənədli romanı belə bir essevari girişlə başlayır. Öz ustadına-sənət müəllimnə böyük qayğı və ehtiramın ifadəsi kimi səslənən bu sözlər - ”romantik, ilhamlı bir ürəyin Xəzərlə ünsiyyəti” Məmməd Cəfər dünyasının romantik aləmini bəyan edir. Məmməd Cəfər və Xəzər bənzətməsi mənə romantik bir bənzətmə təsiri bağışladı-Xəzər kimi Məmməd Cəfər ömrü də qasırğalı, tufanlı, narahat və bunun ardınca sakitlik, həzinlik, xəfif və ilhamlı bir dəniz ömrünü xatırlatdı. ”Deyirlər fikrin ən narahat gərginliyi-düşüncədir. Lakin böyük düşüncələr, adətən, təkliyin sakitliyində doğulur” - Yaşar müəllim Düşüncə anlamını Məmməd Cəfər ömrü üçün ən başlıca həyat-yaşam-var olmaq reallığı kimi təqdir edir.**

Akademik Məmməd Cəfər XX əsrin bütün tarixini öz varlığında yaşadan bir insan idi. 1909-1992-bu 83 illik ömür həm də Azərbaycan ədəbiyyatının, Azərbaycan milli mənəviyyatının keçdiyi bir yolun Məmməd Cəfər timsalında tarixidir. Məmməd Cəfərsiz bu Yolu təsəvvür etmək mümkün deyil.

Yaşar Qarayevin təsvir etdiyi ”Romantik Məmməd Cəfər”i mən ilk növbədə, son dərəcə realist, təkcə düşüncə mənasında deyil, həm də praktiki olaraq bütün ömrünü real həyat fəaliyyəti ilə bir neçə nəslin gözləri qarşısında canlanan yaradıcı bir insan ömrü kimi düşünürəm. Hərdən düşünürəm ki, ”Romantik Məmməd Cəfər”in görəsən xəyallara dalmağa vaxtı olubmu bu qədər monoqrafiyaları, cild-cild dərslikləri, yüzlərlə məqalələri, məruzə və çıxışları qələmə alıb? Xəyala dalmağa vaxtı olubmu ki, hər gün Universitetdə ya APİ-də Rus ədəbiyyatından, Xarici Ölkələr ədəbiyyatından mühazirələr oxusun, ”Ədəbiyyat qəzeti”nin redaktoru kimi hər gün saatlarla materiallarla tanış olsun, Ali məktəblərdə dekan, kafedra müdiri, Ədəbiyyat İnstitutunda şöbə müdiri, direktor, EA-da Akademik-Katib kimi məsul vəzifələrdə çalışsın, EA-nın və Yazıçılar İttifaqının tədbirlərində iştirak və çıxış eləsin, amma bir gün də yazı masasından ayrılmadan yazsın, yaratsın.

Məmməd Cəfər Azərbaycan ədəbi tənqidinin professçional mənada ilk təməl daşlarını qoyanlardan biri idi Xalq yazıçısı Elçinin ”Cəfər müəllim” yazısında Məmməd Cəfərin fəaliyyət dairəsini çox yığcam şəkildə ifadə olunur və bu təqdimat adamı heyrətə gətirir. Müasirləri arasında yalnız akademik - ”tənqidimizin vicdanı” hesab edilən Məmməd Arif Dadaşzadə bu çoxcəhətli fəaliyyəti ilə müqayisəyə gələ bilər. Amma kəmiyyət anlayışı həmişə bir şübhəçilik yaradır, ”məhsuldar yazıçı”, ”məhsuldar tənqidçi”- bəzən bu ifadələr öz əksinə çevrilir. İstər Məmməd Arifin, istərsə də Məmməd Cəfərin bu çoxcəhətli fəaliyyəti, sözün əsl mənasında adamı heyrətə gətirən alim-tənqidçi fəaliyyəti kəmiyyət anlayışını tamamilə keyfiyyət göstəricisinə çevirir. Məmməd Cəfərin hətta ən kiçik yazısından tutmuş ən monoqrafik tədqiqatına qədər hər bir yazısı ədəbi tənqidimizin-ədəbiyyatşünaslığımızın-ictimai fikrimizin ən gözəl örnəklәridir. Hətta bu yazıların bir çoxuna sosialist realizminin damlaları düşsə belə

Mənim Məmməd Cəfər müəllimlə ilk ”görüşüm” tədəbəlik illərindən başlayıb. O, bizə Rus ədəbiyyatı tarixindən mühazirələr oxuyurdu. 1975-ci ildə isə aspiranturaya qəbul imtahanında onun qarşısında oturub biletimə düşən suallara cavab vermişəm, o zaman Məmməd Cəfər institutda ”Ədəbiyyat nəzəriyyəsi” şöbəsinin müdiri idi. Namizədlik dissertasiyası müdafiə edəndə Məmməd Cəfər müəllim iclasa sədrlik edirdi və sonda cibindən bir kiçik qeyd dəftərçəsi çıxarıb adımı ora yazdı, sözü bu oldu ki, bu cavan oğdan üzərində işləsə, yaxşı bir tənqidçi ola bilər. Deməli, elm aləminə ilk xeyir-duamı Məmməd Cəfər müəllimdən aldım.

Məmməd Cəfər Cəfərov öncə qeyd etdiyim kimi, Azərbaycan professional tənqid və ədəbiyyatşünaslığın təməl daşlarını qoyanlardan biridir. Etiraf edirəm ki, mən bu böyük alimin şəxsiyyəti və yaradıcılığı barədə Yaşar Qarayev kimi dərinliklə, geniş və əhatəli yaza bilmərəm, Onun şəxsiyyəti və yaradıcılığı haqqında söylənilən fikirlər də əsl həqiqəti ifadə edir, Anar onu dəyərli alim, əsl ziyalı, Tofiq Hacıyev ”mülayim, ancaq lazım gələndə sərt Məmməd Cəfər müəllim” Bəxtiyar Vahabzadə ”böyüklük və nəcabət rəmzi”, Əzizə Cəfərzadə ”müəllimlər müəllimi”, Fuad Qasımzadə ”geniş, diapazonlu alim”, Abbas Zamanov böyük şəxsiyyət, İsa Həbibbəyli ”ədəbiyyatşünaslıqda yeni bir məktəbin banisi” kimi qiymətləndiriblər, Şamil Qurbanov onu ”Azərbaycanın Belinskisi” adlandırıb və s. Bu alimlərin demək olar ki, hamısı Məmməd Cəfərin tələbələri olublar.

Məmməd Cəfəri mənə sevdirən ilk əsəri onun ”Füzuli düşünür” monoqrafiyası olub. Tələbəlik illərində Axundov kitabxanasında, böyük oxu zalında mütaliə elədiyim bu əsəri sonralar bir neçə dəfə oxudum, dərk elədim, bu əsər dahi Füzulini də mənə sevdirdi. Ümumiyyətlə, Məmməd Cəfərin əksər yazılarında onun böyük vətənpərvərliyindən, azərbaycançılığından irəli gələn bir Sevgi çağlayır, o, təkcə Füzulini deyil, Nizamini də, Axundovu da, Mirzə Cəlili də, Sabiri də, Hüseyn Cavidi də, Məhəmməd Hadini də, Abdulla Şaiqi də, Zərdabini də, Səməd Vurğunu da sevdirməyi bacarırdı. Tədqiqatçı üçün təkcə təhlil ustalığı, faktları ustalıqla mənalandırmaq istedadı çox mühüm şərtdir, amma bu istedada sevgi də qarışmalıdır. Bu mənada Məmməd Cəfərin yetirmələri ondan bu sevgi dərsini də mənimsəyiblər. Baxın: ”Füzulini sağ ikən ölüm hissləriylə yaşayan bədbinlər də başa düşə bilməzlər. Füzulini anlamaq üçün eşq, həyat və səadət dolu bir qəlbə malik olmaq lazımdır. Füzulini başa düşmək üçün ürəkdən kədərlənməyi bacardığın kimi, ürəkdən gülməyi bacarmalısan, nikbin olmalısan, lakin nikbinlik adı ilə sadəcə dişlərini ağardanlar da Füzulini başa düşə bilməzlər. Füzuli yaşayır, Füzuli sevilir, Füzulinin xalqı böyük xalqdır!.. Füzuli sevirdi. Füzuli sözün geniş və yüksək mənasında həyat aşiqi idi. Həyat və idrak aşiqi-bu ad Füzuliyə çox yaraşır! Füzulini sevin!” ”Füzuli sevir”, ”Füzuli düşünür”, ”Füzuli yaşayır”-bu silsilədə mən yalnız emosional cümlələri seçdim, amma M.Cəfərin Füzuli ilə bağlı bu yazıları dahi şairin idrak aləmini ilk



dəfə elm aləminə-füzulişünaslığa bəxş etdi. ”Füzulidən sonra dörd yüz ildir ki, Azərbaycan şeiri tərəqqi edir, yeni fikirlər, bədii ifadələrlə zənginləşir, lakin Füzuli şeiri köhnəlmir, öz təzəliyini, təravətini itirmir. Hansı dövrdə olursa-olsun, Azərbaycan şeirini Füzulisiz təsəvvür etmək mümkün deyil” -Məmməd Cəfər ”Füzuli düşünür” yazısına məhz bu cümlələrlə başlayır və Füzuli şeirinin elə qatlarına nüfuz edir ki, bunlar füzulişünaslıqda təzə, açılmamış cığırlar idi. Füzulinin eşqi (”Füzuli aşiqdir, ancaq bir və bir neçə Leyli avarası deyildir”), platonik eşqə münasibəti (”Görəsən Platon olmasaydı və qanadlıqanadsız ruhlar haqqında mühakimələrini söyləməsəydi, Şərq şeirinin ruhu, ideya istiqaməti nə ilə müəyyən olunacaqdı? Yaxşı olmazmı ki, Füzulini aparıb qədim Yunanıstana çıxarmaqdansa, onun sənətinin ruhunu, onun eşqini mənsub olduğu xalqın ruhunda axtaraq?”), dinə münasibəti, sufizmlə bağlılığı, fəlsəfi baxışları-bir sözlə, idrak dünyası tədqtq olunur.

Məmməd Cəfər Mirzə Fətəli Axundovu da belə ehtirasla, ədəbiyyat tariximizin inkişafında yeni bir mərhələnin əsasını qoyvn bir şəxsiyyət kimi tədqiq edir (”Mütəfəkkirin şəxsiyyəti”), Sabiri də (”Hünəpvər şair”) Cəlil Məmmədquluzadəni də, Hadini də milli dəyərlərimiz kimi sevə-sevə təbliğ edir. Xatırladım ki o, Məmməd Arifin tövsiyəsi ilə Axundovun ədəbi-tənqidi görüşləri haqqında namizədlik dissertasiyası müdafiə etmişdi. Məhəmməd Hadiyə -onun yaradıcılığına sabit münasibətin olmadığı qırxıncı illərdə ”Səni kim unudar” məqaləsini yazmışdı. Bu yazıya görə onu tənqid də eləmişdilər.

Hər bir şəxsiyyətin formalaşmasında heç şübhəsiz, müəllimlərin rolu böyükdür.Təfsilata varmaq istəmirəm, sadəcə, Məmməd Cəfərə dərs deyən müəllimlərin adlarını çəkim: Azərbaycan ədəbiyyatından (Füzulidən Vaqifə qədər) professor Bəkir Çobanzadə, gənc Həmid Araslı, təcrübəli müəllim Feyzulla Qasımzadə, Rus ədəbiyyatı tarixindən gənc Mikayıl Rəfili, cavan tənqidçi Məmməd Arif, Qərb ədəbiyyatı tarixindən Əli Sultanlı, sonra Hacıbaba Nəzərli, sonra Hənəfi Zeynallı, Fəlsəfə tarixindən Seyfulla Şamilov, ədəbiyyatşünaslıqdan Əli Nazim Elə tələbəlik illərində Məmməd Cəfər ona dərs deyən bu müəllimlərin etimadını qazanır sonralar o özü də ali məktəblərdə də Azərbaycan və rus ədəbiyyatından mühazirələr oxuyur, bir pedaqoq kimi şöhrət qazanır.Onun tənqidçi-ədəbiyyatşünas fəaliyyəti ilə ustad pedaqoq fəaliyyətini bir-birindən təcrid etmək olmaz.

Məmməd Cəfərin ən böyük xidmətlərindən biri döüç cildlik ”XIX əsr rus ədəbiyyatı” dərsliklərini hazırlaması oldu. Xatırladım ki, o, otuzuncu illərdə, ilk məqalələrini də məhz rus ədəbiyyatı klassiklərinə həsr etmişdi.Azərbaycanın ali məktəblərində rus ədəbiyyatına aid ilk dərsliyin müəllifi-”Rus ədəbiyyatı tarixi oçerkləri”- bunu 1939-cu ildə hazırlamışdı. Yetmişinci illərdə isə həmin bu monumental cildlər meydana gəldi Bu dərsliklərdə hər bir oçerk öz yüksək elmi-nəzəri səviyyəsi ilə seçilir və mən deyərdim, rusların özlərinin yazdıqlarından heç də geridə qalmır. M.Cəfər Tolstoyşünas, Gertsenşünas və Belinskişünas alim kimi də tanınır və etiraf olunur. 1964-cü ildə onun ”Azərbaycan-rus ədəbi əlaqələri tarixindən” adı ilə çox sanballı bir monoqrafiyası nəşr edildi. M.Cəfər bu mənada ədəbi əlaqələr sahəsində görkəmli bir mütəxəssis idi. Ancaq təbii ki, onun əsas tədqiqat predmeti Azərbaycan ədəbiyyatı idi. Lap qədim dövrdən müasir çağımızacan Azərbaycan ədəbiyyatının elə bir şəxsiyyəti, elə bir problemi olmayıb ki, M.Cəfərin nəzərindən yayınsın. ”Azərbaycan ədəbiyyatında romantizm” əsəri isə heç şübhəsiz onun şah əsərlərindən biridir. M.Cəfər böyük dramaturq Hüseyn Cavid haqqında ilk manballı monoqrafiyanın da müəllifidir və cavidşünaslıqda yeni bir mərhələnin başlanğıcı da bu monoqrafiya ilə başlayır.

Məmməd Cəfər müəllim haqqında yazılarda onu ədəbiyyat tarixçi, görkəmli nəzəriyyəçi, tənqidçi kimi təqdim edirlər. Kimisi onun ədəbiyyat tariximizin ən mötəbər tədqiqatçısı kimi qələmə verir, kimisi nəzəriyyəçi alim kimi fəaliyyətini xüsusi qeyd edir, kimisi də M.Cəfəri sırf tənqidçi kimi üstünlüklərindən söz açır. Amma bu fəaliyyət sahələrinin üçü də bir-birilə sıx bağlıdır. Məmməd Cəfər ayrıca ”Azərbaycan ədəbiyyat tarixi” yaratmamışdır, lakin onun klassiklərimizin yaradıcılığı ilə bütün yazılarını bir yerə cəm etsən, bir ədəbiyyat tariximiz yaranar.

Onun ”Azərbaycan ədəbiyyatında romantizm”, ”Şeirmizin dili və vəzni haqqında”, ”Ədəbi tənqid bir elm kimi” və s. məqalələri həmçinin ”Füzuli düşünür” yazısı, ədəbi dilimizlə bağlı fikir və mülahizələri nəzəriyyəçi Məmməd Cəfəri də bizə tanıdır. Bu baxımdan M.Cəfər Azərbaycan filologiyasında elmi nəzəriyyənin əsasını qoyprlardan biridir. Lakin onun haqqında qələmə alınan yazıların əksəriyyətində ”Tənqidçi Məmməd Cəfər” ifadəsinə rast gəlirik. Bu da təəccüblü deyil. M.Cəfərin istər klassik, istərsə də müasir ədəbiyyatımızla bağlı yazılarında onun tənqidçi təfəkkürü həmişə üstündür. Böyük şairimiz Səməd Vurğun onu ”filosof tənqidçi” adlandırırdı. Onlar möhkəm dost idilər. 38-ci ildə Səməd Vurğun haqqında həqiqətə uyğun olmayan bir məqalə dərc edilmişdi. M.Cəfər məqaləyə cavab kimi ”Səməd Vurğun yaradıcılığında xəlqilik” sərlövhəlı bir məqalə yazdı, ”Ədəbiyyat qəzeti”ndə çap etdirdi. Bir il sonra Yazıçılar İttifaqında S.Vurğunun yaradıcılığına həsr edilən bir iclas keçirildi, bu iclasda M.Cəfər məruzə ilə çıxış etdi.İclasdan sonra kimsə kinayə ilə dedi: ”Çox sağ ol qazaxlı balası!. Amma mən qazaxlı deyil, naxçıvanlı idim”.

M.Cəfərin tənqidi yazılarında bu ədəbi vicdan-həqiqət hissi heç vaxt korşalmadı. Onun müasir ədəbiyyata, ayrı-ayrı ədəbi şəxsiyyətlərə həsr etdiyi yazılarda ”bir vicdan həqiqəti səviyyəsinə qalxan estetik mövqe” ilə qarşılaşırıq. M.Cəfərin tənqidi öyrədən tənqid idi. Amma nəsihətçilikdən, moralistikadan uzaq idi. Onun tənqidi yüksək təhlil mədəniyyəti ilə aşılanmışdı. O, həmişə ”reseptçilikdən”, mücərrəd, ümumi ”nəzəriyyəçilikdən” qaçırdı, müsbət qəhrəman problemindən yazanda da, Rəsul Rzadan novator bir şair kimi söz açanda da, Səməd Vurğunun ”Aygün”ündən, İlyas Əfəndiyevin ”Körpüsalanlar”ından, Elçinin hekayə və povestlərindən, İsa Hüyseynovun, Bayram Bayramovun, Hüseyn Abbaszadənin, Qabilin əsərlərindən danışanda da həmişə prinsipial tənqidçi mövqeyi nümayiş etdirirdi. M.Cəfər bədii əsərlə həyat həqiqəti arasında əlaqəni həssaslıqla izləyir, bu əlaqə zəif nəzərə çarparsa, tənqidin ucadan səslənən mühakimələrindən çəkinmirdi. Onun ədəbi tənqid haqqında fikirləri bu güyn də müasir səslənir: ”Tənqidçinin sənətini hamının bacardığı asan bir iş sayanlar səhv edirlər. Tənqidçilik istedaddır və bu istedadda nə qədər şərtlər birləşir: dərin hiss etmək qabiliyyəti, incəsənətə odlu məhəbbət, hərtərəfli, ciddi tədqiqat. Obyektiv olmaq, təsir altına düşməmək qabiliyyəti! Tənqid şıltaqlığı, süni müdrikliyi, özünü yuxarı tutmağı, həqiqi sənət əsərinin xırda nöqsanları ilə əylənməyi, yersiz əsəbiliyi, dəlilsizsübutsuz hücümları, kardondan qılınc oynatmağı, həmçinin yersiz məddahlığıf sevmir. Bunlar onun təbiətinə ziddir” Məmməd Cəfərin elə tənqidi yazıları var ki, bu gün də o yazılara bir dərslik kimi baxırsan. Məsələn, Mir Cəlalın ”Açıq kitab” romanı haqqında məqaləsi son 73 ilin ən dəyərli tənqid nümunələrindən biridir. Tənqidin ”açıq kitabı” adlandırmaq olar bu məqaləni.

Akademik Məmməd Cəfər çox sadə insan idi. Mən bu sadəliyi Ədəbiyyat İnstitutunun aspirantı olanda da, onun bu institutda şöbə müdiri və direktor işlədiyi illərdə də hiss etmişəm.

Asta danışardı, asta yeriyərdi, heç kimin salamını cavabsız qoymazdı. Baxıb görürdün ki, institutun bütün orta nəsli (hətta yaşlı nəsli də) onun yetirmələridir. Bundan böyük səadət təsəvvür eləmirdim. Həm də çox xeyirxah insan olub. Deyirlər ki, ADU-da dekan işləyəndə öz maaşını yoxsul tələbələrə paylayırmış.

**Və mən də sevinirəm ki, Məmməd Cəfər müəllimin tələbəsi olmuşam. Bu fəxr duyğusu indii də mənim varlığımda yaşayır...**